

Vaqif YUSİFLİ

# TALELƏR ROMANI

"Sevgi həm insani, həm ilahi, həm də sehrli bir hissdir" - Rəşid Bərgüşadlının "Sevginin dadı" romanı bu sözlərlə bitir.

Romanı oxudum, əsərdə canlandırılan hadisələri və insan talelərini izlədim. Tanış olmadığım bir qələm sahibinin səbrinə və inadına heyrət elədim. Dörd yüz əlli səhifəlik bir roman yazmaq, özü də əsərdə təsvir elədiyi hər bir hadisəni sonacan izləmək, hər bir obrazın da taleyini gözdən qaçırmamaq, doğrudan da, səbir tələb edir. Təbii ki, bu dörd yüz əlli səhifəlik romanda bir sıra artıq təfərrüatlar, bol-bol təsvirlər olmasaydı, daha yaxşı olardı. İndi nisbətən həcmi çox da böyük olmayan romanlar yazılır, ənənəvi epik romanlar nadir hallarda gözə dəyir. Halbuki, roman haqqında təriflərdən birində deyilir ki, roman geniş mənzilli bir binadır, bu binanın hər bir otağı insan səsləriylə, bir-birilə çulğaşan hadisələrlə doludur və yazıçının da vəzifəsi bundan ibarətdir ki, bu binanı və orada baş verən hadisələri, orada yaşayan insanları təsvir eləsin.

Rəşid Bərgüşadlının romanı "Sevginin dadı" adlansa da, əsərdə bir neçə mövzu əhatə olunub. Biz əsərin qəhrəmanlarının iziylə gah kənd həyatının müxtəlif olayları ilə tanış olur, gah şəhər həyatına enir, gah Azərbaycanın bir neçə rayonuna "səyahət" edir, gah uzaq Kipr Cümhuriyyətinə yollanır, gah da müxtəlif ailələrin içinə düşürük. Deməli, romanda bu mənada bir məkan genişliyi var. Zaman etibarilə də romanın tutumu böyükdür. Hadisələr təxminən qırx illik bir dövrü əhatə edir və biz təsvir olunan qəhrəmanların uşaqlığından və gəncliyindən ta yetkin yaşlarına qədər, hətta bəzilərinin qocalığına qədər talelərini izləyirik.

Romanın əsas qayəsi nədir? Məncə, müəllif, qarşısına belə bir məqsəd qoyub ki, XX əsrin son rübündə, əsasən qarışıq illərdə öz qəhrəmanlarının mənəvi təkamülünü, bir insan kimi formalaşma prosesini təsvir eləsin, onların hər birinin insani səciyyəsini versin, həyata, gözəlliyə, sevgiyə, müharibəyə münasibətini açıqlasın. Bu qəhrəmanların daxili-mənəvi aləmində baş verən təbəddülatları nəzərə çarpdırsın. Bir məişət çərçivəsində onların əxlaqi kamilliyini, ya da əksinə, əxlaqi tənəzzülünü açıb göstərsin. Və bu prosesdə sevginin onların həyatında oynadığı rolu diqqət mərkəzinə çəksin.

Əsərdə bir-birindən fərqli müxtəlif insan obrazları təsvir hədəfinə çevrilir. Ənənəvi epik romanlarda həmişə baş qəhrəman olur və bütün qalan obrazlar da bu baş qəhrəmanın mühitini təşkil edirlər. Təbii ki, onların da hər birinin taleyini izləmək, onların da duyğu və düşüncələrini, baş verən hadisələrdə hansı mövqe tutmalarını da unutmaq olmaz. Rəşid Bərgüşadlı da bu ənənəvi etiketə sadiq qalmışdır.

"Kəndin adətiydi - biri xalça-palaz yuyanda, yuxa salanda, tütünü ipə düzəndə, barama təmizləyəndə, yun didəndə, yorğan-döşək sırıyanda qonşu arvadlar yığışar, bir-birinə həyan olardılar. Durna nənə bu yardımlaşmanın adını "dəstə ittifaq" qoymuşdu. Həmişə deyərdi ki, - "Bu kənd dəstə ittifaq olmasaydı, işləməkdən çərliyib ölərdik".

Roman bu abzasla başlayır və biz sonrakı səhifələrdə kənd həyatının məişəti, koloritli təbiət mənzərələri, illərdən bəri yaşanan adət-ənənələri ilə tanış oluruq. Hiss olunur ki, müəllif kənddə doğulduğu üçün (bunun əhəmiyyəti az deyil!) bu təsvirlərdə reallıq duyğusunu itirmir. Biz bir ailənin və ona qonşu olanların münasibətlərindən tutmuş, ağsaqqal-ağbirçək kultuna, kəndin məişətini səciyyələndirən detallara qədər hər şeyin yetərincə düzgünlüyünə şəkk eləmirik. Amma bizi daha çox təsvir olunan obrazların taleyi maraqlandırır.

Əlbəttə, epik romanlarda hər bir obrazın öz bədii yükü var.



Romanda bu mənada ən koloritli obraz Durna nənədir. Ayrı-ayrı romanlarda biz nənə obrazlarına çox rast gəlmişik. Amma bu romandakı Durna nənə daha sanballıdır. Onun həyatı gərgin olub, acı günlər, məşəqqətlər yaşayıb, amma heç vaxt həyata inamını itirməyib. "Namazsız ölməkdən qorxuram. Camaat gündə 5 kərə namaz qılır, mənsə, təkcə gecə 7 dəfə namaz qılıram" - deyən bu dünya görmüş ağbirçək bütün cavanlara Allaha inam gətirməyi, həyatda təmiz yaşamağı nəsihət edir. Biz obrazların hərəkətlərini, bir-birilə qarşılıqlı münasibətlərini izləyərkən istər-istəməz Durna nənəni xatırlayırıq, yəni onun nəsihət və tövsiyələrinin yaddaşda, həyat tərzində necə yaşandığını görmək istəyirik.

Romanı birmənalı şəkildə "Fərhadın romanı" da adlandırmaq olar. Müəllif onu həyatın müxtəlif sınaqlarından keçirir. Gah kənddə, gah da şəhərdə yaşayan Fərhad XX əsrin övladıdır, yaşamaq, yaratmaq, özünü dərk etmək, sevmək, sevilmək onun amalıdır. Müəllif onu kənddən ayırıb şəhərə gətirir, elə ilk sınaqdaca uğursuzluğa düçar olur, instituta daxil ola bilmir. Şəhərin bu kənd uşağında buraxdığı təəssürat isə zəngin deyil. Müəllif bu kənd uşağının pozğun bir mühitdə özünü necə aparacağını yoxlamaq üçün hətta bir rus qızı ilə də qarşılaşdırır. Fərhad hisslərinə hakim ola bilmir, amma sonra dərk edir ki, belə yaşamaq olmaz. Burada bir iradımı müəllifə bildirmək istərdim. Fərhadla Lenanın intim-seksual münasibətinə ehtiyac yox idi. Onsuz da bəzi nəsr əsərlərində bu sayaq soyunub-geyinmə "əməliyyatlarına" az təsadüf eləmirik, zövqümüzü niyə korlayaq?

Fərhadın gəncliyi o illərə təsadüf edir ki, Azərbaycanda ictimai-siyasi həyatda yeni bir mərhələ başlanırdı. Sosializm idealları tədricən iflasa uğrayırdı, kapitalist münasibətləri insanların həyatına, məişətinə, bütünlüklə iqtisadiyyata, adət-ənənələrə sirayət edirdi. Ancaq Azərbaycanın başının üstünü də qara buludlar almışdı, Qarabağ müharibəsi, bir milyon yurddaşımızın köçkün, didərgin həyatı, ölkədə baş verən xaos, hərc-mərclik - bunlar doxsanıncı illərin sərt həqiqətləri idi. Fərhadın bir insan kimi formalaşması onun Qarabağ müharibəsində döyüşməsi və ailə namusu çərçivəsində Vətən qeyrəti səviyyəsinəcən baş verən olaylarla bağlıdır. Fərhad düşmənə nifrəti də burda öyrənir, orduda olan başıpozuqluğun da şahidi olur. Bu müharibədə Fərhad təkcə öz kəndini, doğma ocağını itirmir, həm də Durna nənəsini itirir, atası Ağəli əsir düşür. Müəllif romanda Kamo adlı bir erməninin Ağəlini xilas etməsindən söz açır və əlbəttə, minlərlə faşist təbiətli, quduz ermənilər içində bir insan erməni olduğuna inandırır bizi.

O qarışıq illərdə Fərhad gah Bakıda, gah Mingəçevirdə, gah da başqa bir rayonda yaşamalı olur. Tamam dəyişir, insanları daha yaxşı tanıyır, haqsızlığa dözəmmir, Nağı adlı dostunu qanadına alır, oğlunu işlə təmin edir. Və nəhayət, Afət adlı bir qızla evlənir.

Romanın "sevgi dadı" bundan sonra başlayır. Sən demə, Durna nənə ölüm ayağında vəsiyyət edibmiş ki, Fərhad Dilbərlə evlənsin. Amma bu evlilik onların bir-biriylə əlaqə saxlamaması üzündən baş tutmur.

Amma sən demə, hər ikisi bir-birini sevirmiş. Dilbərin anası ayrı əxlaqın sahibidir, qızının xoşbəxtliyini onu varlı-karlı bir adama ərə getməsində görür. Nəhayət, onlar bir təsadüf nəticəsində qarşılaşırlar. Artıq iki qız, bir oğul sahibidir Fərhad, həyat yoldaşını ürəkdən sevməsə də, onun ləyaqətini tapdalayan bir hərəkətdə bulunmayıb. Dilbərlə görüşəndə tərəddüdlü hallar keçirir: "Görəsən Dilbərin Durna nənəmin vəsiyyətindən xəbəri vardımı? Bu arvaddan da baş çıxarmaq olmur vallah, özümdən bu qədər yaşca balaca bir qızla evlənə biləcəyimi hardan ağlına gətiribmiş?". Dilbərin ona qarşı çılğın məhəbbətini hiss edəndən sonra başa düşür ki, o qızın heysiyyətinə, içindəki duyğularına toxunmaq olmaz. Hər ikisi oturub öz məhəbbətləri haqqında roman yazmağa başlayırlar. Nəhayət, hamı bu məsələni anlayır, bu sevginin qarşısını almaq isə müşküldür. Təbii ki, oxucuların əksəriyyəti bu izdivaca haqq qazandırmayacaq, təmiz bir ailəsi olaola bir kişinin cavan bir qızla sevgi macərası çoxuna xoş gəlməyəcək. Şəxsən mən də onların tərəfindəyəm. Amma bir məsələ var: İnsan ömrü boyu əsl sevgi həsrətində olursa, illər gəlib keçdikcə o arzu ürəyində azalmırsa, nə etməli? Müəllif Fərhadla Dilbərin sevgisini pak, təmiz sevgi kimi təqdim edir və bu təsvirlərdə heç bir uydurma yoxdur. Fərhadın bir etirafını dinləyək: "Əgər bu dünyada sevgi deyilən bir şey mövcuddursa, ən böyük sevgim ailəmdən sonra Dilbərəydi - o, mənim ən əziz ailə üzvüm idi. Əzrail soruşsaydı ki - "Afətin, yoxsa Dilbərin canını alım?. "Uf" demədən deyərdim, - "Heç birinin, ancaq mənim canımı al!"

Romanda insan talelərinin təsviri bir-birini əvəz edir. Və biz həm doxsanıncı illərin ictimai-siyasi olaylarını, həm də bu hadisələrdə insanların nə düşündüklərini, hansı amala xidmət etdiklərini öyrənirik. Müstəqilliyin ilk illərində təbii ki, həyatda hər şey qaydasınca getmirdi, Sosializmdən qalan zərərli mənəvi miraslar hələ də adamların şüurundan çəkilməmişdi. Və indi də çəkilmir. Amma təmizlik, mənəvi saflıq elə bir mənəvi keyfiyyətdir ki, istər sosializm dövründə, istərsə də kapitalizm münasibətlərinin bərqərar olduğu müstəqillik dövründə də heç vaxt onu yaşadanların həyatından çəkilib getmir.

Romanda gənclərin düşüncə tərzi ilə də tanış oluruq. Hiss olunur ki, müəllif cavanların şüurunda əmələ gələn yeni meylləri təqdir edir, məsələn, indiki cavanların dini inanclara, Allaha meyl etmələri müsbət hadisədir. Amma təbii ki, xurafatdan uzaq olsun onların düşündükləri. Romanda Fərhadın oğlu Kənanın dediklərinə haqq qazandırırıq: "İnsan öz təkəbbürünü aşsa, haqqı görər və qul olduğunu, bu dünyaya başıboş heyvan kimi gəlmədiyini anlar, yaradanını dərk edib yalnız ondan imdad dilər. Ölüm - bu, dəyərini canımızla ödədiyimiz yeganə şeydir. Ölüm canımızdan ruhu alıb sahibinə aparır. Yaradan o qədər adil və xeyirxahdır ki, onun verdiyi canı, ruhu araq, siqaret kimi murdar zir-zibilə kirlətməyə haqqımız yoxdur. Göz görəgörə, şüur bilə-bilə canımıza olmayan bir kef xatirinə xətər yetirmək axmaqlıqdır. Allah bizləri belə axmaq olmaqdan qorusun".

"Hamı səbirsizliklə yağışın kəsməyini gözləyirdi. Bilirdilər ki, leysan tez keçəcək. Hətta, bir azdan göy qurşağı aydın səmanı bəzəyəcək. Çünki bu yağış adından bəlli idi, - bu yağışa, "Tülkü oğlunu evləndirir" deyirdilər. Yağışda islanmaqdan qorxmazlar, yağış suyu günahlarımızı qüsl edən aydınlıqdır" - roman bu sözlərlə bitir. Yağış təmizlikdir, qoy bu yağış romanda təsvir olunan insanların da günahlarını birdəfəlik yuyub aparsın.